**Yusifqızı Ə**. Suqovuşanda əbədiyyətə qovuşan igid // Xalq qəzeti. - 2023. - 26 iyun. - **№ 135**. - S. 11.

**“Ölməyə yox, düşməni öldürməyə, torpağımızı almağa gedirəm. Amma qayıtmaya da bilərəm. Bax, Tünzalə, sən zabit yoldaşısan. Həmişə mənə dost, yoldaş olmusan. Bu, müharibədir, hər an hər şey ola bilər, hazır ol. Sənin kimi mərd, güclü qadın qoyub gedirəm, gözüm arxada qalmır. Üç övladımı sənə tapşırıram, göz bəbəyin kimi qoru”.**
Soltanın son dəfə dediyi bu sözləri xatırladıqca, Tünzalə xanımın göz yaşları selə dönür.

– O gün axşama qədər həyəcandan bir yerdə dura bilmədim”, – deyir. – Acığı tutsa da, tutsun, zəng eləyəcəm, – dedim öz-özümə. Səsini eşitmək, sağ-salamat olduğunu bilmək istəyirdim. Telefonu açan kimi xəttin o başından gələn top-tüfəng səsini eşitdim, içim titrədi. Çox danışa bilmədik, amma salamat olması sakitləşdirdi məni.

...Polkovnik-leytenant Soltan Akif oğlu Məmmədov 1981-ci ildə Yevlax rayonunun Səmədabad kəndində anadan olub. 1997-ci ildə Cəmşid Naxçıvanski adına hərbi məktəbə daxil olub. 1999-cu ildə həmin məktəbi bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul edilib, oranı motoatıcı ixtisası üzrə bitirib. Leytenant hərbi rütbəsi alaraq xidmətini davam etdirmək üçün Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində dinləyici kursuna yazılıb. 2004-cü ildə “N” saylı hərbi hissədə motoatıcı taqım komandiri, sonra tabor komandirinin müavini təyin olunub.

Hərb sənətinə sevgi, qüsursuz xidmət Soltanı pillə-pillə ucaldıb. 2013-cü ilin iyununda Naxçıvan Muxtar Respublikasında “N” saylı hərbi hissəyə tabor komandirinin maddi-texniki təminat üzrə müavini göndərilib. Naxçıvanda və Tərtərdə tabor komandiri vəzifəsinə qədər yüksəlib. Qısa və şərəfli ömrünün hər gününü səngərlərdə, Vətənə xidmətdə keçirib. Çünki düşmən tapdağı altında inləyən Vətəni vardı. Şəhid olmamışdan əvvəl də yaralanıbmış. Ayağından aldığı qəlpə yarasına baxmayaraq, döyüş mövqeyini, şəxsi heyəti tərk etməmişdi. Yaralarının sarğısını elə səngərdəcə, döyüş gedə-gedə özü dəyişirmiş.

Şəhid olmasından bir gün öncə humanitar atəşkəsə yarımca saat qalıbmış. Müavininə deyib ki, şəxsi heyəti dərəyə apar. Özü və bir neçə əsgər orada qalıb. Düşmən tərəfdən həmin mövqe durmadan atəşə tutulub. Oktyabrın 10-da ürəyindən aldığı qəlpə yarasından şəhid olub.

Böyük qızı Ləman özünü təmkinli aparır. Kiçik qızı Sümayə hələ də atasının şəhid olduğunu bilmir. Hər soruşanda deyirlər ki, Türkiyədə hərbi təhsil alır. Oğlu Əli əvvəllər deyirmiş ki, polis olacağam. Ancaq indi qərara gəlib ki, hərbçi olsun. Çiynində general rütbəsi daşısın.

...Soltanın üçrəngli bayrağa bükülmüş tabutunu kənd camaatı evlərinə qədər çiyinlərində gətirdi. Ailə isə göz yaşları içərisində şəhidini qarşıladı. Qızı Ləman və həyat yoldaşı Tünzalə Soltanı hərbi formada qarşıladılar. Ləmanın “Ata, şəhadətin

mübarək!" hayqırtısı hələ də qulaqlarımdan getmir. Tünzalə xanımın "Mən səninlə fəxr edirəm, şəhidim!" deməsi isə həmişəlik xatirimə hopub.

Onu düşündükcə Qarqar çayı gəlir gözümün önünə. Soltanın ömrü axar sular kimi keçib gedib. Millətimizin Soltan kimi igid oğlanlarının qanı ilə sağalıb Vətən dərdimiz. Övladları qürurla Şuşada, Suqovuşanda, Talışda gəzəcək, atalarının və minlərcə şəhidimizin əziz ruhunu hörmətlə anacaqlar.

Vaxtilə oxuduğu Səmədabad kənd tam orta məktəbi onun adını daşıyır. Ailəsi Bakının Xocasən kəndində yüksək səviyyədə təmir olunmuş 3 otaqlı mənzillə təmin edilib. Öz şəhid izini torpağa salan Soltan Akif oğlu Məmmədov ölümündən sonra "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.